# Forum iştirakçıları muxtar respublikanın gəzməli yerləri ilə tanış olublar







Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun iştirakçılarının növbəti gəzintisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə forum iştirakçıları Duzdağ Fizioterapiya Mərkəzinə gəliblər. Mərkəzlə tanışlıq zamanı məlumat verilib ki, 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıq və ləvazimatlarla təchiz edilib.

Qeyd olunub ki, aparılan araşdırmalar və duzun tərkibinin öyrənilməsi ilə bağlı elmi-tədqiqatların nəticəsi Naxçıvan Fizioterapiya Xəstəxanasının işinin müasir tələblər səviyyəsində qurulması zərurəti yaradıb. 2008-ci ildə Ali Məclis Sədrinin tapşırıqlarına uyğun olaraq bu səhiyyə ocağı Duzdağ Fizioterapiya Mərkəzinə çevrilib, bronxial-astma və ağciyər xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün 474 çarpayılıq yeraltı və yerüstü hissədə hər cür şərait yaradılıb. Duzdağ Fizioterapiya Mərkəzinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin hazırkı Prezidenti, o zaman Baş nazir olan Rəcəb Tayyib Ərdoğan da iştirak ediblər.

Həkimlərin xüsusi marağına səbəb olan Duzdağ Fizioterapiya Mərkəzi qonaqlarda yüksək təəssürat yaradıb.

Gəzinti Möminə Xatun türbəsi, Xan Sarayı və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıqla davam edib. Möminə Xatun türbəsi ilə tanışlıq zamanı bildirilib ki, islam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən olan Möminə Xatun türbəsi 1186-cı ildə tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə qalan abidənin baş tağında kufi xətti ilə yazılan bu sözlər diqqət çəkir: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".



Qonaqlar Batabat yaylağında da olublar.

Batabat yaylağının ecazkar gözəlliyi, füsunkar təbiəti qonaqlarda xoş təəssürat yaradıb. Onlar sonra məşhur Zorbulağa gəlib, Batabat gölünə baxıblar.

Gəzinti "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə başa çatıb. Qeyd olunub ki, ziyarətgahın adı "mağara sahibləri" mənasını verir. Müqəddəs Qurani-Kərimdə "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yuxuya getməsindən, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Adıçəkilən mağaranın dünyanın digər ölkələrində olduğu güman edilib. Ancaq son dövrlərdə aparılan araşdırmalar sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən qonaqlar ziyarətgahı gəziblər.

Azərbaycan.- 2022.- 22 iyun.- S. 14.